***Tahir ORUCOV***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutu***
***e-mail: tahiroruclu@gmail.com***

# HƏNƏFİ ZEYNALLI: AZƏRBAYCAN FOLKLORUNUN HAMİSİ VƏ CƏFAKEŞİ

**Xülasə**

Hənəfi Zeynallı Azərbaycan ədəbiyyatı tarixinə ədəbiyyatşünas, tənqidçi, Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından biri, cəfakeş bir folklorşünas kimi daxil olmuşdur. 1920-30-cu illərdə Azərbaycan folklorunun elmi şəkildə tədqiq olunmasının bünövrəsini qoyanlardan biri də Hənəfi Zeynallı olmuşdur. Görkəmli folklorşünas H. Zeynallının Azərbaycan folklor örnəklərinin toplanması, nəşri və tədqiqində də böyük xidmətləri olub.

1923-cü ildən etibarən H.Zeynallı "Azərbaycanı Tədqiq və Tətəbbö cəmiyyət"ində folklor komissiyasının sədri və Elmlər Akademiyasının Azərbaycan filialında folklor şöbəsinin rəhbəri seçilir. Bununla əlaqədar olaraq o, tez-tez Azərbaycanın müxtəlif rayonlarından ekspedisiyalar təşkil etmişdir. H. Zeynallı bu ekspedisiyaların rəhbəri olmuş və folklorumuzun müxtəlif janrlarını toplanılması ilə məşğul olmuşdur. O, həm folklor toplayıcısı kimi topladığı materialları ayrıca kitabça şəkilində nəşr etdirmiş, həm də folklor nəzəriyyəçisi kimi çox mühüm nəzəri əhəmiyyəti olan məqalələr yazımışdır. H.Zeynallı folklorun toplanması qaydalarından ibarət 24 səhifəlik bir kitabça yazıb çap etdirmişdir.

Folkorumuzu toplamaq və nəşr etmək işinin əsas təşkilatçılarından, hami və cəfakeşlərindən biri olan H. Zeynallı şifahi xalq yaradıcılığının daha da inkişaf etməsinə çalışan ilk görkəmli folklorşünas-alim olmuşdur. Görkəmli alim 40 illik ömrünün 20 ildən çoxunu folklorun, klassik və müasir ədəbiyyatın öyrənilməsinə, folklorun toplanmasına, tədqiqinə və bir sıra nəzəri məsələlərin araşdırılmasına həsr etmişdir.

***Açar sözlər:*** *Hənəfi Zeynallı, Bakı, ədəbiyyatşünas, publisist, folklorşünas alim, repressiya qurbanı.*

***Tahir ORUJOV***

## HANAFI ZEYNALLI: PATRON AND MARTYR OF AZERBAIJANI FOLKLORE

**Summary**

Hanafi Zeynalli entered the history of Azerbaijani literature as a literary critic, one of the first researchers of Azerbaijani oral folk literature, a suffering

folklorist. Hanafi Zeynalli was one of the founders of the scientific study of Azerbaijani folklore in 1920-30. Prominent folklorist H. Zeynalli had great merits in the collection, publication and research of Azerbaijani folklore samples.

Since 1923, H. Zeynalli has been elected chairman of the folklore commission at the "Azerbaijan Research and Study Society" and head of the folklore department at the Azerbaijan branch of the Academy of Sciences. In this connection, he often organized expeditions from different regions of Azerbaijan. H. Zeynalli was the leader of these expeditions and was engaged in collecting various genres of our folklore. As a folklore collector, he published the materials he collected in a separate booklet, and as a folklore theorist, he wrote articles of great theoretical importance. H.Zeynalli wrote and published a 24-page booklet on the rules of collecting folklore.

H. Zeynalli, one of the founders, patrons and martyrs of the work of collecting and publishing our folklore, was the first prominent folklorist-scientist who tried to further develop oral folk art. The prominent scientist has devoted more than 20 years of his 40-year life to the study of folklore, classical and modern literature, the collection and study of folklore, and the study of a number of theoretical issues.

***Keywords:*** *Hanafi Zeynalli, Baku, literary critic, publicist, folklore scholar, victim of repression.*

***Тахир ОРУДЖОВ***

**ХАНАФИ ЗЕЙНАЛЛЫ: ПОКРОВИТЕЛЬ И СТРАДАЛЬЕЦ АЗЕРБАЙДЖАНСКОГО ФОЛЬКЛОРА**

**Резюме**

Ханафи Зейналлы вошел в историю азербайджанской литературы как литературный критик, один из первых исследователей азербайджанской устной народной литературы, страдающий фольклорист. Ханафи Зейналлы был одним из основоположников научного изучения азербайджанского фольклора в 1920-30 годах. Выдающийся фольклорист Х. Зейналлы имел большие заслуги в сборе, публикации и исследовании образцов азербайджанского фольклора.

С 1923 года Х.Зейналлы избирается председателем фольклорной комиссии «Общества изучения и изучения Азербайджана» и заведующим отделом фольклора Азербайджанского отделения Академии наук. В связи с этим он часто организовывал экспедиции разных регионов Азербайджана. Х.Зейналлы был руководителем этих экспедиций и занимался сбором раз-

личных жанров нашего фольклора. Как собиратель фольклора, он опубликовал собранные материалы в отдельном буклете, а как теоретик фольклора написал статьи, имеющие большое теоретическое значение. Х. Зейналлы написал и опубликовал 24-страничный буклет о правилах сбора фольклора.

Х.Зейналлы, один из основоположников, покровителей и страдальецов работы по сбору и изданию нашего фольклора, был одно из них первым выдающимся учёным-фольклористом, пытавшимся и дальше развивать устное народное искусство. Выдающийся ученый посвятил более 20 лет своей 40-летней жизни изучению фольклора, классической и современной литературы, сбору и изучению фольклора, изучению ряда теоретических вопросов.

***Ключевые слова:*** *Ханафи Зейналлы, Баку, литературовед, публицист, фольклорист, жертва репрессий.*

**Məsələnin qoyuluşu:** Azərbaycan folklorunun toplanılmasının və onun elmi şəkildə tədqiq olunmasının təməlini qoyanlardan biri olan folklorşünas alim Hənəfi Zeynallı olmuşdur. Buna görə də Hənəfi Zeynallının çoxsahəli folklorşünaslıq fəaliyyəti ətraflı şəkildə araşdırılmalıdır. H. Zeynallının folklorşünaslıq elmi sahəsində fəliyyətinin əsas ideya ağırlığını təşkil edən kitabları və toplama materialları geniş tədqiq edilməlidir. Hənəfi Zeynallının folklorşünaslıq fəaliyyətini müxtəlif aspektlərdən araşdırmaya cəlb etmək Azərbaycan folklorşünaslığının başlıca problemlərindəndir.

**İşin məqsədi:** Məhsuldar yaradıcılığa malik olan Hənəfi Zeynallının bir folklorşünas alim kimi çoxyönümlü fəaliyyətinin folklorda öz əksini tapmasını müəyyənləşdirmək və bu sahədə ətraflı tədqiqatlar aparmaq araşdırmanın əsas məqsədidir.

Hənəfi Zeynallı Azərbaycan ədəbiyyatı tarixinə ədəbiyyatşünas, tənqidçi, Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından biri, cəfakeş bir folklorşünas kimi daxil olmuşdur. 1920-30-cu illərdə Azərbaycan folklorunun elmi şəkildə tədqiq olunmasının bünövrəsini qoyanlardan biri də Hənəfi Zeynallı olmuşdur. Görkəmli folklorşünas H.Zeynallının Azərbaycan folklor örnəklərinin toplanması, nəşri və tədqiqində də böyük xidmətləri olub.

1923-cü ildən etibarən "Azərbaycan Ədib və Şairlər İttifaqı" Rəyasət Heyətinin sədr müavini seçilən H.Zeynallı tez-tez Azərbaycanın rayonlarına ekspedisiyalar təşkil etmişdir. H.Zeynallı bu ekspedisiyaların rəhbəri olmuş və folklorumuzun müxtəlif janrlarını toplanılması ilə məşğul olmuşdur. O, həm folklor toplayı-

cısı kimi topladığı materialları ayrıca kitabça şəkilində nəşr etdirir, həm də folklor nəzəriyyəçisi kimi çox mühüm nəzəri əhəmiyyəti olan məqalələr yazırdı.

H.Zeynallı folklorun toplanması qaydalarından ibarət 24 səhifəlik bir kitabça yazıb çap etdirmişdir. Folkorumuzu toplamaq və nəşr etmək işinin əsas təşkilatçılarından, hami və cəfakeşlərindən biri olan H.Zeynallı şifahi xalq yaradıcılığının daha da inkişaf etməsinə çalışan ilk görkəmli folklorşünas-alimlərimizdəndir. Keçmiş "Kommunist" qəzetində və ona əlavə çıxan "Xalq ədəbiyyatı həyatdan doğar" adlı ədəbi səhifələrdə H.Zeynallı şifahi xalq ədəbiyyatını və onun xüsusiyyətlərini işıqlandıran məqalələrini dərc etdirmişdir.

H.Zeynallı "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyət"ində folklor komissiyasının sədri və Elmlər Akademiyasının Azərbaycan filialında folklor şöbəsinin rəhbəri olması ilə əlaqədar olaraq tez-tez Azərbaycanın müxtəlif rayonlarından folklorumuzun müxtəlif janrlarını toplamaqla məşğul olmuşdur. Görkəmli alim 40 illik ömrünün 20 ildən çoxunu folklorun, klassik və müasir ədəbiyyatın öyrənilməsinə, folklorun toplanmasına, tədqiqinə və bir sıra nəzəri məsələlərin araşdırılmasına həsr etmişdir.

Azərbaycan şifahi xalq ədəbiyyatının ilk tədqiqatçılarından biri, folklorşünas kimi daxil olan Hənəfi Baba oğlu Zeynallı 1896-cı ildə Bakı şəhərində anadan olmuşdur. Hənəfi altı yaşında ikən atası vəfat etmişdir. Ailənin bütün ağırlığı hələ uşaq ikən onun üzərinə düşmüşdür. Ancaq buna baxmayaraq, Hənəfi əvvəlcə mədrəsədə oxuyur, sonra isə yeddinci rus-tatar məktəbinə daxil olur. O, rus-tatar məktəbini bitirdikdən sonra Bakıda Alekseyev adına 3 nömrəli ali-ibtidai məktəbdə təhsilini davam etdirmişdir. 1916-cı ildə oranı uğurla bitirən H.Zeynallı Moskva-Nijniqorod dəmiryol baş idarəsində işləməklə yanaşı, imtahan verib müsaqibə yolu ilə Ali-Texniki məktəbə (indiki Bayman adına) daxil olur.

H.Zeynallı 1920-ci ilin yanvarında İstanbul universitetinin hüquq fakültəsində təhsil almağa başlayır. Lakin Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə əlaqədar olaraq partiya və sovet idarələrində işləmək üçün həmin ilin iyul ayında Türkiyədən geri çağrılır. H.Zeynallı 1922-ci ildə Azərbaycan Dövlət Universitetinə daxil olur, oranı 1927-ci ildə bitirir və təyinatını Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasına, sonra isə Azərbaycan Pedoqoji İnstituna almışdır (1, 118).

1920-ci illərdə respublikanın ictimai həyatında yaxından iştirak edən H.Zeynallı işgüzarlığı və gözəl təşkilatçılıq bacarığı ilə Göyçay, Salyan, Muğan və Şamaxı qəzalarında partiya və sovet orqanların yaranmasında iştirak etmişdir. O, əvvəlcə məktəbdənkənar və kənddə iş şöbələrində müdir işləmiş, keçmiş Xalq Maarif Komisarlığı kollegiyasının üzvü olmuş və burada məktəbdən-kənar şöbəyə rəhbər-

lik etmişdir. H.Zeynallı 1921-22-ci illərdə keçmiş "Kommunist" qəzetinin redaksiya heyətinin üzvü, keçmiş Şuşa qəza partiya komitəsinin katibi olmuş, sonra isə Azərbaycan Həmkarlar İttifaqı Şurasının orqanı olan "Zəhmət" qəzetinin redaktoru vəzifəsində çalışmışdır. H.Zeynallı 1924-29-cu illərdə Azərbaycan Dövlət Nəşriyyatının baş redaktoru vəzifəsində çalışmışdır. H.Zeynallı bu illərdə "Kommunist", "Maarif və mədəniyyət", "İnqilab və mədəniyyət", "Maarif işçisi" qəzet və jurnalları ilə əməkdaşlıq edərək ədəbi-publisistik yazılarla çıxış etmişdir (2, 5).

1930-1935-ci illərdə o, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ədəbiyyat bölməsində folklor şöbəsinin rəhbəri olmuşdur. H.Zeynallı keçmiş SSRİ Elmlər Akademiyası Azərbaycan filialının dil və ədəbiyyat şöbəsinin müdiri kimi də fəaliyyət göstərmişdir. Bu şöbə akademiyanın nəzdində instituta çevrildikdən sonra isə müxtəlif vaxtlarda folklor şöbəsinin müdiri, elmi katib, direktor müavini, "Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti"ndə folklor komissiyasının sədri, 1936-cı ilin sentyabrında AZFAN-ın yanında Baş Mətbuat Müvəkkili vəzifələrində işləmişdir (3, 305-306).

"Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti" 1923-cü il noyabrın 2-də təsis edilmişdir. İlk növbədə cəmiyyətin üç əsas şöbəsi işə başlamışdı. Cəmiyyətin tərkibində Xalq ədəbiyyatı sahəsində çalışan şəxslərdən prof. A.Baqri, H.Zeynallı, V.Xuluflu, A.Subhanverdixanov, yazıçılarımızdan C.Məmmədquluzadə, Ə.Haqverdiyev və başqaları var idi. "Azərbaycan Tədqiq və Tətəbbö cəmiyyəti"nin xətti ilə cəmiyyətin əməkdaşları Azərbaycanın müxtəlif rayonlarına ekspedisiyaya göndərilirlər. Sonralar cəmiyyətin "Xəbərlər"i nəşr olunmağa başlamışdır. "Xəbərlər" həm rus, həm də Azərbaycan dilində çıxırdı" (4, 55).

H.Zeynallı folklorun toplanması qaydalarından ibarət 24 səhifəlik bir kitabça yazıb çap etdirmişdir. O, bununla əlaqədar yazırdı: "Toplanan materiallar hansı kənddən, hansı qəzadan, o yerin hansı təbiətə malik olmasından, kimdən: gəncdən ya qocadan toplandığının göstərilməsinin elm üçün əhəmiyyəti vardır". H.Zeynallı bu işin şərəfli və həm də çox çətin, məsul olduğunu da gənclərə xatırladırdı. "Xalq ədəbiyyatının əslini aramaq, tapmaq bir adamın, beş adamın, bir ilin, üç ilin işi deyildir. Bunun üçün başqa millətlərdə olduğu kimi əsrlər uzunu, nəsillər boyu ilə yorulmaq, dayanmaq, dincəlmək bilməyən qoçaq kişilər tələb edir ki, axıraxırda, bir nəticəyə çatmaq olsun" (4, 121).

Folkorumuzu toplamaq və nəşr etmək işinin əsas təşəbbüskarlarından biri olan H.Zeynallı şifahi xalq yaradıcılığının daha da inkişaf etməsinə, onun elmi-nəzəri məsələlərinin aydınlaşdı-rılmasına çalışan ilk görkəmli folklorşünas alimlərimizdəndir. Keçmiş "Kommunist" qəzetində və ona əlavə çıxan "Xalq ədəbiyyatı həyatdan doğar" adlı ədəbi səhifələrdə H.Zeynallı şifahi xalq ədəbiyyatını və onun

xüsusiyyətlərini səciyyələndirən "Həyat və sənət" (1923), "Xəvas və əvam ədəbiyyatı" (1923) məqalələrini dərc etdirmişdir. Bu məqalələrində, eləcə də folklorşünaslığa aid digər əsərlərində H.Zeynallı folklorşünaslığın mühüm elmi-nəzəri məsələləri, onun toplanması və tədqiq prinsipləri aydınlaşdırılır (5, 38).

Xalq ədəbiyyatının ən geniş yayılmış janrlarından biri bayatılardır. Xalq həyatının bütün sahələrini özündə əks etdirən oynaq, dərin məzmunlu, yüksək fəlsəfi fikirlərlə dolu olan bu lirik şeirlərdən şifahi ədəbiyyatla yanaşı, yazılı ədəbiyyatda da istifadə edilir. Bayatıların bu xüsusiyyətləri H. Zeynallının tədqiqlərində ilk dəfə ətraflı araşdırılmışdır. 1925-ci ildə "Azərbaycan Ədəbiyyat Cəmiyyəti" tərəfindən çap edilmiş "Azərbaycan xalq ədəbiyyatından: "Bayatılar" adlı birinci kitaba yazdığı müqəddiməsində H.Zeynallı qeyd edirdi ki, bu kitabça" gələcəkdə bu yolda görüləcək işlərin birinci addımıdır". Tədqiqatçı bu toplanmış nümunələri xalqımızın məişətini, mədəniyyətini, müxtəlif sahələrini aydınlaşdırmağa imkan verən maraqlı mənbə kimi qiymətləndirirdi. Burada bayatılarla yanaşı manilərinin də ideya bədii xüsusiyyətləri nəzərdən keçirilirdi. Bu kitabla əlaqədar olaraq H.Zeynallı bayatıların, ümumiyyətlə, xalq ədəbiyyatı nümunələrinin toplanması və tərtibi prinsiplərinin üzərində dayanır və onların tərtibatı üçün sistem müəyyənləşdirməyə çalışırdı (6).

1926-cı ildə H.Zeynallının "Azərbaycan atalar sözü və məsəlləri" kitabı nəşr edilmişdir (7). Bu kitab həmin dövrə qədər çap edilən bütün folklor kitablarından öz elmi prinsipləri ilə seçilir. H.Zeynallı Azərbaycanda nəşr edilən bütün atalar sözlərini nəzərdən keçirmiş və mənbələrini göstərməklə, onları öz kitabına daxil etmişdir. H.Zeynallının adı çəkilən kitabı sonralar 2012-ci ildə AMEA Folklor İnstitutu tərəfindən yenidən nəşr edilmişdir (8).

H.Zeynallı atalar sözü, məsəl, onların fərqli və oxşar cəhətləri, forma xüsusiyyətləri barədə müqəddimədə geniş danışır. Burada o, yalnız atalar sözlərindən deyil, ümumiyyətlə, xalq ədəbiyyatından, onun mənşəyindən, janrlarından söhbət açır. H. Zeynallı müqəddimədə eyni zamanda atalar sözü, zərbü-məsəl, onların fərqli və oxşar cəhətləri, forma xüsusiyyətləri barədə geniş məlumat verir. H.Zeynallının atalar sözü və məsəlləri necə topladığı, haradan, kimdən yazıya aldığı haqqındakı məlumatları xüsusilə maraqlıdır. Aydın olur ki, o, XIX əsrdən başlayaraq bütün mənbələri araşdırmışdır. Müəyyən olur ki, müəllif bu materialları F. Köçərli, R. Əfəndiyev, S. Qənizadə və başqalarının kitablarından, SMOMPK-in nömrələrindən, «Məktəb» məcmuələrindən toplamışdır. H.Zeynallının qeydlərindən aydın olur ki, o, Qasım Qasımov, Əlisgəndər Cəfərov, Fərhad Ağazadə, Əbülqasım Hüseynzadə və başqalarından da şəxsən bir çox nümunələr alınmışdır. Be-

ləliklə, müəyyən elmi prinsiplərə əsaslanan mükəmməl bir kitab - "Azərbaycan atalar sözü" kitabı ortaya çıxmışdır. (8, 395).

Bu kitabdan sonra, 1928-ci ildə H.Zeynallı "Azərbaycan tapmacaları" kitabını nəşr etdirir. Bu kitab da əvvəlki kitab kimi müəyyən elmi prinsiplər əsasında tərtib edilmişdir. H.Zeynallı tapmacalar haqqında Rusiya və Avropada çap olunan kitabları diqqətlə araşdırmış, onların tərtib prinsiplərini yoxlamış və bu kitabların yaxşı cəhətlərindən istifadə etmişdir. Müəllif kitabda nömrə ilə 760 tapmaca yerləşdirmiş və onların cavablarını kitabın sonunda vermişdir.

H.Zeynallı kitaba böyük bir müqəddimə də yazmışdır. Burada tapmacalar haqqında deyilən fikirlərin hamısı Azərbaycan folklorşünaslığı üçün yeni idi. H.Zeynallı tapmacaları ayrıca deyil, Azərbaycan folklorunun başqa janrları ilə, xüsusilə, atalar sözləri və bayatılarla sıx əlaqədə və müqayisədə təhlil edir. Müəllif göstərir ki, tapmacalarda iki tərəf olur; özü, bir də onun cavabı. Beləliklə, tapmacalar iki və daha artıq şəxs arasında mükalimə şəklində meydana gəlmişdir. Buna görə də H.Zeynallı göstərir ki, tapmaca atalar sözünə, bayatıya, mainyə nisbətən daha çox kollektivlik xüsusiyyətinə malikdir. Yəni tapmacalar məclislərdə, şənliklərdə, tapmaca gecələrində kollektiv tərəfindən yaradılmışdır (9).

H.Zeynallı bir sıra nəzəri məqalələrin də müəllifidir: "Xalq ağız ədəbiyyatı", "Azərbaycan el ədəbiyyatı", "Oktyabr inqilabı və Azərbaycan folkloru" və s. (10). Bunların içərisində "Xalq ağız ədəbiyyatı" və "Azərbaycan el ədəbiyyatı" məqalələri xüsusilə diqqətəlayiqdir. "Azərbay-can folkloru" məqaləsində müəllif folklorşünaslığımız tarixində ilk dəfə olaraq Azərbaycan xalq ədəbiyyatının çap olunma və öyrənilmə məsələlərini sistemləşdirməyə çalışmışdır.

1928-ci ildə yazdığı "Türk ədəbiyyatı üzrə iş kitabı" əsərində H.Zeynallı folklor, terminologiya və s. ilə bağlı məsələlərə toxunur. H.Zeynallı 1935-ci ildə Azərbaycan nağıllarını tərtib edərək rus dilində nəşr etdirir. Kitabı görkəmli rus folklorşünası, professor M.Y.Sokolov redaktə edir. H.Zeynallının rus oxucuları üçün tərtib etdiyi bu nağıllar kitabının müqəddiməsində Azərbaycan nağıllarında ölüm-dirim mübarizəsi aparan xeyir və şər qüvvələr haqqında verdiyi məlumatlar olduqca maraqlıdır.

H.Zeynallı 1923-31-ci illərdə "Azərnəşr"də işləyərkən "Kommunist", "Maarif və Mədəniyyət", "İnqilab və Mədəniyyət", "Maarif işçisi" jurnalları ilə əməkdaşlıq etmiş, müxtəlif yazılarla çıxış etmişdir. O, bu yazılarında Azərbaycan xalq ədəbiyyatının toplanması, çap olunma və öyrənilmə məsələlərinə də diqqətlə yanaşmışdır. H.Zeynallı folklor nümunələrinin toplanmasının nəzəri-elmi prinsip və üsullarına dair müsbət fikirlər söyləmişdir. Müəllif bu barədə belə yazırdı: "Toplayanlar geniş xalq kütləsi içərisinə girərək bu materialları olduğu kimi yazı-

ya almayıblar. Yəni hər bir yerin özünəməxsus bir leksikonu, şivəsi olduğu halda buna fikir verilmir”. (5, 21).

İndi folklorşünas alim V.Vəliyevin folklorun toplanması haqqında fikirlərinə nəzər salaq: “Yazıya alınan folklor nümunələri onu danışan şəxsin dediyi kimi yazılmalıdır. Sözləri müasir ədəbi dilin normalarına salmaq, cümlələri düzəltmək, qətiyyən məsləhət görülmür. Əgər yazıya alınan mətndə anlaşılmaz sözlərə təsadüf edilərsə, onun mənası yalnız yazı qurtardıqdan sonra aydınlaşdırılmalıdır. Toplayıcı yerli dialektdə olan sözlərə xüsusi diqqət yetirməli, onların ayrıca lüğətini tərtib etməlidir” (10, 408).

Göründüyü kimi, H.Zeynallının folklorun toplanması haqqında mülahizələri, eləcə də folklorun janrları haqqındakı nəzəri fikirləri bu gün də öz əhəmiyyətini və aktuallığını qoruyub saxlamışdır. Təbii ki, xalqımızın maariflənməsində, folklorumuzun toplanıb zənginləşməsində xüsusi xidmətləri olan H.Zeynallı NKVD cəlladlarının diqqət mərkəzindən kənarda qala bilməz-di. O, Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə milli ideologiyaya və müstəqil dövlətçiliyimizə xidmət edən insanlarla, o cümlədən Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə və başqaları ilə sıx əlaqə saxlamaqda ittiham edilirdi. İttihamlardan biri də alimin öz əsərlərində guya əksinqilabi, millətçi ideologiyaya yer verməsi idi.

Məhz bunun nəticəsidir ki, Hənəfi Zeynallının həbsindən öncə Dövlət Təhlükəsizlik İdarəsinin leytenantı Şerin tərəfindən alim haqqında 26 yanvar 1937-ci il tarixində yazılan arayış rəhbərliyə təqdim olunur. Arayışda yazılırdı:

1. Hənəfi Zeynallı 1917-ci ildən Eser partiyasının üzvi olub.
2. 1928-ci ildə Bakı türk konsulu Fərid bəyin vasitısilə məşhur türk ictimai xadimi İsmayıl Hikmətlə yazışırmış.
3. 1929-cu ildə və sonrakı illərdə müsavatçılardan Baharlı, Feyzullayev, Mövsumov, Cobanzadə və başqalari ilə əlaqədə olub.
4. 1923-cü ildə əksinqilabi, Trotski mövqeyində durmuş və R.Axundovla əlaqədə olub.
5. Özünün elmi-praktiki işini əksinqilabi, millətçi ideologiyasına yönəldib.

Bu arayışdan sonra, 27 yanvar 1937-ci ildə H.Zeynallının həbsi üçün order yazılır. Orderin arxasında 28 yanvarda alındığı qeyd edilir. H.Zeynallı məhz həmin gündə Dövlət Təhlükəsizlik İdarəsi IV şöbəsinin müstəntiqi Şer tərəfindən də həbs edilir (11, 112). Bundan sonra isə onun istintaqı başlanır və üç gün davam edir. H.Zeynallını bir çox millətçi şəxslərlə, o cümlədən Nazim Əfəndi, İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə və başqaları ilə əlaqə saxladığına görə ittiham edirlər. Bu adamlarla əlaqəsi olmadığından Hənəfi təbii ki, ittihamları rədd edir.

Lakin XDİK-in kameralarında ağır işgəncələrə dözə bilməyən H.Zeynallı 13 fevral 1937-ci il tarixdə IV şöbənin rəisi mayor Gerasimova ərizə ilə müraciət edir. Müraciətin qısa məzmunu belə idi:

"1930-cu ilə qədər millətçi kimi günahlarım olsa da, lakin 1932-ci ildə partiyaya bərpa olandan sonra ta həbsimə qədər – yəni 28 yanvar 1937-ci ilə qədər partiyaya qarşı çıxmamış, ikili siyasət yürütməmişəm. Bu barədə müstəntiq Qalustyanı da məlumatlandırmışam. 12 günlük tək adamlı kamera həyatı, yarıac şəraitdə, nəhayət yuxusuz gecələr məni ona gətirib çıxartdı ki, Ruhulla Axundov haqqında düzgün olmayan məlumatlar verim, onun əksinqilabi, millətçi, trotskiçi olduğunu deyim". Sonda H.Zeynallı qeyd edir ki, ona şərait yaratsınlar özünün fikrini axıra qədər açıq ifadə edə bilsin.

H.Zeynallı getdikcə boynuna daha ağır cinayətləri almalı olur. Belə ki, iyun ayının 22-də o bildirir ki, neft sənayesinə vurulan ziyankarlıq və təxribatçılıqda "əli var". Avqustun 26-da isə L.Beriya və M.C.Bağırovun öldürülməsinə hazırlıq barədə "məlumat verir". Bağırovu Mərkəzi Komitənin binasının yanında, tində, yaxud MK ilə Xalq Komissarları Şurası binaları arasında, neft rayonlarından birinə gedərkən, yaxud elə MK binasının önündəcə aradan götürməyin nəzərdə tutulduğunu "açıb danışır". Verilən işgəncələrə dözməyən müttəhim saxta və yalançı süjetlər əsasında hazır yazılmış ən ağır ifadələri belə imzalayır.

Sentyabrın 2-də, daha sonra həmin ayın 20-də müstəntiq H.Zeynallını yeni ittihamlarda günahlandırmağa başlayır. Onun adına çalışdığı sahə ilə bağlı daha neçə-neçə ağlagəlməz cinayətlər yazılır. Müstəntiqin ittihamından belə çıxır ki, Zeynallı Ruhulla Axundovun rəhbərliyi altında elm cəbhəsində genişmiqyaslı ziyanlı işlər aparıb.

Araşdırmaşı Aslan Kənan yazır: "Başqa müttəhimlər kimi Hənəfi Zeynallıya qarşı o qədər amansızlıqlar göstərilir ki, bu ağır işgəncələrə dözə bilməyən alim 26 fevral 1937-ci ildə yenidən mayor Gerasimova ərizə yazmağa məcbur edilir. Alim həmin ərizədə bunları qeyd edir: "Mən bütün elədiklərimi boynuma alıram". "Mən nə qədər alçaq, rəzil, vicdansız, provakator olduğu-mu etiraf edirəm... Mən istintaqa işlərim barədə düzgün məlumat vermək istəyirəm" və s. Bu ifadələri ona zorla yazdırmaqla H.Zeynallının nə qədər ağır, dözülməz işgəncələrə məruz qaldığının bir daha şahidi oluruq." (11, 114)

H.Zeynallıya daha ağır zərbə vurmaq üçün onu partiya işçilərinə sui-qəsdə günanlandırırlar. Onlar yaxşı bilirdilər ki, məhz bu yolla H.Zeynallının cismani məhvinə səbəb ola bilərlər. Onun 26 avqust 1936-cı ildə aparılan istintaq materiallarına nəzər salaq:

"Sual: – Siz kimə qarşı sui-qəsd hazırlayırdınız?

Cavab: – Sui-qəsdi biz Beriya və Bağırova qarşı hazırlayırdıq. Çünki onlar partiyanın baş bələdçisi idilər.”

Ümumiyyətlə, istintaq materiallarından “aydın olur” ki, H.Zeynallı 1 dekabr 1934-cü ildə əksinqilabi, trotskişi-zinoyevçi terror təşkilatının S.M.Kirova qarşı hazırladığı sui-qəsddə və 1934-37-ci illərdə partiya və hökumətə qarşı hazırlanan terrorda iştirak edib. O həmçinin Beriya və Bağırova hazırlanan sui-qəsddə “iştirak” da edib. H.Zeynallının 4 fevral 1937-ci ildə verdiyi ifadəsindən də bunu aydın görmək olur: “Bəli, mən əksinqilabi kitablar alırdım, bəli, mən əksinqilabi təşkilatın üzvü idim. Cavad Bağırzadəni, Həbib Səmədzadəni, İmran Babayevi də həmin təşkilata cəlb etmişdim, bəli, mən əksinqilabi millətçi kadrlar tərbiyə edib yetişdirmişəm, bəli, mən Türkiyəyə meyl etmək baxımından Azərbaycanın SSRİ-dən ayrılmasına tərəfdar idim”(12).

Fiziki, psixoloji təzyiqlər altında ifadə verən Zeynallı özünün də əksinqilabi təşkilata kim tərəfindən cəlb edildiyini açıqlayır: “1936-cı ilin sonunda Ruhulla Axundovun kabinetində Bakıda və respublikanın rayonlarında gəncləri təşkilata cəlb etmək kimi göstərişlər almış, türk ziyalıları arasında işi genişləndirərək, onları terrora, təxribatçılığa, ziyankarlığa, casusluğa və müharibə vaxtı təslim çiliyə istiqamətləndirmişəm”. 1937-ci il fevralın 16-da verdiyi ifadə sində isə deyilənlərə əlavə etmişdir ki, o, Türkiyənin mövqeyindən çıxış edərək Azərbaycan SSR-ni SSRİ-dən ayırmaq istəmişdir. May ayının 5 və 10-da verdiyi ifadəsində isə çevriliş edəcəyini də etiraf edirdi.

İstintaqın gedişindən aydın olur ki, Hənəfi Zeynallı ədəbiyyatşünas və folklorşünas olmaqdan daha çox siyasətçi və ya siyasətşünas imiş. Həm də adi siyasətçi yox, terrorçu, radikal siyasətçi imiş. Belə ki, avqustun 26-da verdiyi ifadəsində o, L.P.Beriya və M.C.Bağı rovun terror yolu ilə aradan götürülməsi, M.C.Bağırovun MK binasının yanında, MK ilə Xalq Komissarları Şurasının binaları arasında, yaxud da neft rayonlarının birinə qətlə yetirmələri barədə məlumat verir. Daha doğrusu, müstəntiqlərin işgəncələri altında saxta ifadələr verirdi (13, 23).

Müstəntiqlər sentyabrın 20-də “sübut etmişlər” ki, H.Zeynallı Ruhulla Axundovun rəhbərliyi altında elm sahəsində də ziyanlı işlər aparmışdır. Belə ki, guya H.Zeynallı orta təhsil müəssisələ-ri üçün dil və ədəbiyyat üzrə dərsliklərin müntəzəm buraxılışına mane olmuşdur. Azərbaycan ədəbiyyatı klassiklərindən M.F.Axundovun əsərlərinin və “Mola Nəsrəddin”nin nəşrini bilərəkdən saxtalaşdırmışdır. O, həmçinin inqilabi folklor tərəfdarlarının əsərlərinin toplanmasını dayandırmış, əvəzinə “Koroğlu” materiallarını toplamışdır. Çünki məhz burada o, təşkilatın Azərbaycanın müstəqilliyi haqqında “ideyasını” əks etdirməli idi.

"H.Zeynallı başdan-başa ziyanlı terminologiya və orfoqrafiya tərtib etmiş və onu ziyalılar arasında yaymışdır" (12).

1937-ci il oktyabrın 5-də Azərbaycan SSR-in Xalq Daxili İşlər komissarı Sumbatov-Topuridze 12493/81 nömrəli işə verilmiş ittihamnaməni təsdiq edir. Müttəhim Azərbaycan SSR Cinayət Məcəlləsinin 73, 64, 69 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilir.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi hərbi kollegiyası səyyar sessiyasının Matuleviçin, Zaryanovun və Jiqurun iştirakı ilə məhkəmə iclası olur. Saat 16-25-də başlanan iclas saat 16-40-da sona çatır. H.Zeynallının da məhkəməsi bütün repressiya qurbanlarının məhkəməsi kimi cəmi 15 dəqiqə çəkir. Burada Hənəfi Zeynallı özünü tam günahkar hesab etdiyini, təslim olduğunu və mərhəmət dilədiyini söyləyir. İstitintaq materialları ilə tanış olanda aydın olur ki, H.Zeynallı bu çür işgəncələr qarşısında, ayrı-ayrı şəxslər haqqında müfəssəl məlumatlar da verirdi.

Lakin buna baxmayaraq, SSRİ Ali Məhkəməsinin 12 oktrabr 1937-ci il tarixində Bakı Şəhərində iclasında keçirilir. Qapalı keçirilən məhkəmə iclasında Hənifə Baba oğlu Zeynallı Azərbaycan SSR cinayət məcəlləsinin 64, 69, 70, 73-cü maddələri ilə təqsirli bilinib ən yüksək cəzaya – güllələnməyə məhkum edilir. H.Zeynallının güllələnməsi haqqında hökm 1937-ci il oktyabrın 13-də Bakıda icra olunur.

Azərbaycan SSR Ali Məhkəməsinin və SSRİ Ali Məhkəməsinin 30 mart 1957-ci il tarixli qərarı ilə Hənəfi Zeynallıya işlərində cinayət tərkibi olmadığı üçün ölümündən sonra bəraət verilir.

**İşin elmi nəticəsi:** Hənəfi Zeynallı Azərbaycan folklorşünaslıq elmi tarixində xüsusi yeri olan folklorşünas alimlərdəndir. Araşdırmada çoxyönlü fəaliyyət imkanlarına, zəngin təfəkkürə, istedadlı toplayıcılıq qabiliyyətinə malik olan Hənəfi Zeynallının bir folklorşünas alim kimi nağıl, tapmaca janrları haqqında, eləcə Azərbaycan folklorunun müxtəlif nəzəri məsələləri haqqında fikirləri öz əksini tapmışdır.

**İşin elmi yeniliyi:** Tədqiqatın əsas elmi yeniliyi onun mövzusunun aktuallığı ilə müəyyən edilir. Hənəfi Zeynallının bir folklorşünas alim kimi Azərbaycan folklorşünaslıq elmi tarixində yeri, onun nəzəri fikirləri ətraflı çəkildə öyrənilərək tədqiqata cəlb edilmişdir. Araşdırmada həmçinin Hənəfi Zeynallının müasir dövrümüzdə də öz elmi aktuallığını saxlayan bir çox nəzəri mülahizələrinə və onların əsas müddəalarına geniş yer ayrılmışdır.

**İşin tətbiqi əhəmiyyəti:** Araşdırma Azərbaycan folklorşünaslığında müstəsna rolu və yeri olan görkəmli folklorşünas Hənəfi Zeynallının folklorşünasığımızda nəzəri və toplayıcılıq fəaliyyətinin təcəssümünü müəyyən etmək baxımından mühüm elmi əhəmiyyətə malikdir.

## QAYNAQLAR

1. Əmrahov M. Salahov, N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941-ci illər). Bakı: Mütərcim, 2007, səh. 118.

2. Böyük elm fədaisi Hənəfi Zeynallı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı: 2016, s. 5, 36 səh.

3.Azərbaycan Sovet Ensiklopediyası. X cilddə, IV c., Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, 1980, 592 səh.

4. Zeynallı H. Seçilmiş əsərləri. /Toplayanı və tərtib edəni R.Tağızadə. Bakı:Yazıçı, 1983, 320 s.

5. Əliyev Y. Azərbaycan folklorşünaslıq elminin tarixi. Bakı:1999

6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: “Maarif”,1981

7. Zeynallı H. Azərbaycan atalar sözü. Bakı: Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Xəlqiyyat bölməsi, 1926

8. Zeynallı. H.Azərbaycan atalar sözü./Transliterasiya edəni: R. Xəlilov, tərtib edənlər: Rza Xəlilov, Afaq Xürrəmqızı. Bakı, «Elm və təhsil», 2012. -174 s.

9. Zeynallı H. Azərbaycan tapmacaları. Bakı: “Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Xəlqiyyat bölməsi”, 1928

10. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif,1985, 414 səh.

11. Kənan A. XX əsrdə repressiyalara məruz qalanlar. Bakı: Azərnəşr, 2011, 296 səh.

12. MTN-in arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR-26385.

13. Qasımov C. Xalqın sərvətini toplayan “xalq düşməni”, yaxud Hənəfi Baba oğlu Zeynallı. Azərbaycan şifahi xalq ədəbijjatına dair tədqiqlər (iyirmi səkkizinci kitab), Bakı: Nurlan, 2009, 168 səh. səh. 3-27.

*Daxilolma tarixi: İlkin variant 10.02.2021*
*Son variant 03.03.2021*